**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 75

**Bakı şəhəri** "14" sentyabr 2015-ci il

**"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kadr məsələləri üzrə Komissiyasının yaradılması barədə"**

Azərbaycan Respublikasının səhiyyə sisteminin ixtisaslı kadrlara olan tələbatının müəyyənləşdirilməsi, onların iş yerləri ilə təmin olunması, peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi və eyni zamanda kadr hazırlığının təkmilləşdirilməsi məqsədi ilə

ƏMR EDİRƏM:

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kadr məsələləri üzrə Komissiyası yaradılsın və onun tərkibi təsdiq edilsin (əlavə olunur).

2. Komissiyanın fəaliyyəti aşağıdakı istiqamətlərdə müəyyən edilsin:

2.1. səhiyyə müəssisələrində həkimlərin müsabiqə yolu ilə mərkəzləşdirilmiş qaydada işə qəbulu;

2.2. ali və orta ixtisas tibb təhsili müəssisələrində təhsilalanların köçürülməsi məsələlərinə baxılması;

2.3. xarici ölkələrdə ali və orta ixtisas, diplomdan sonra ixtisas təhsili almış və Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması üçün müraciət edən şəxslərin sənədlərinə baxılması və rəy verilməsi;

2.4. dövlət sifarişi əsasında rezidenturanı bitirən həkim-mütəxəssislərin təyinatı və işlə təminatı.

3. Komissiyanın sədrinə tapşırılsın:

3.1.fəaliyyət istiqamətlərinə uyğun olaraq, kadr məsələlərinin həlli qanunvericiliyə əsasən həyata keçirilsin;

3.2.zəruriyyət yarandığı halda, komissiyanın fəaliyyətinə müvafiq profil üzrə mütəxəssislərin cəlb edilməsi təmin edilsin.

4. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 30.03.2007-ci il tarixli 34 nömrəli, 28.08.2007-ci il tarixli 80 nömrəli, 30.12.2012-ci il tarixli 126 nömrəli, 01.09.2014-cü il tarixli 86 nömrəli, 14.10.2014-cü il tarixli 104 nömrəli əmrləri qüvvədən düşmüş hesab edilsin.

5. Əmrin icrasına nəzarət nazir müavini Abbas Vəlibəyova həvalə edilsin.

**Oqtay Şirəliyev**